# Xankəndidə ilk Şəhər Günü münasibətilə möhtəşəm konsert və atəşfəşanlıq olub










**Sentyabrın 20-də Xankəndi, Xocalı, Xocavənd, Ağdərə şəhərləri günü münasibətilə Xankəndi şəhərindəki Zəfər Meydanında bayram konserti keçirilib. Konsert Mədəniyyət Nazirliyi və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə baş tutub.**



AZƏRTAC xəbər verir ki, bayram konserti F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında Telman Hacıyevin "Vətən süitası" ilə başlanıb. Sonra Fəxri Kazım Nicat Polad Bülbüloğlunun "Azərbaycan", Əməkdar artist Almaz Orucova "Nə olaydı, yarım olaydı" Azərbaycan xalq mahnısı və Tofiq Quliyevin "Azərbaycana gəlsin", Ayşən Mehdiyeva Hatəm Nəbioğlunun "Vətən", İlhamə Qasımova Elza İbrahimovanın "Ey Vətən", Əməkdar artistlər Anar Şuşalı Cahangir Cahangirovun "Cənnətim Qarabağ", Fehruz Səxavət Əlibaba Məmmədovun "Xudayar təsnifi" ("Vətən yaxşıdı"), Gülüstan Əliyeva Ə.Məmmədovun "Sənə inanıram" və Əvəz Muradovun "Mənim eşqim Azərbaycandır", Səbuhi İbayev "Qarabağ şikəstəsi"ni ifa ediblər.

Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında Üzeyir bəy Hacıbəylinin "Cəngi" rəqsi və "Ay Ləli" xalq mahnısı da təqdim olunub.

Konsert proqramı Əməkdar artist İlham Nəzərovun ifasında Müslüm Maqomayevin "Azərbaycan" (söz: N.Xəzri) mahnısı ilə başa çatıb.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları ilə yanaşı, yüzlərlə şəhər sakini və Qarabağ Universiteti tələbələrinin, eləcə də qonaqların izlədiyi bayram konserti alqışlarla qarşılanıb.

Konsertdən sonra keçirilən atəşfəşanlıq Qarabağın, Xankəndi şəhərinin səmasını al-əlvan rənglərə boyayıb. Yaranmış ecazkar mənzərə baxışlarını azad Qarabağın rəngbərəng işıqlarla süslənən səmasına dikən tamaşaçılarda bölgənin yeni növrağına, parlaq gələcəyinə olan inamı daha da artırıb. Möhtəşəm atəşfəşanlıq coşqu ilə qarşılanıb.

Qeyd edək ki, 2023-cü il sentyabrın 19-da Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları və ətraf yaşayış məntəqələri Azərbaycanın nəzarətinə keçib, ölkəmizin suverenliyi tam bərpa edilib. Dövlət başçısının sərəncamı ilə 20 sentyabr "Xankəndi, Ağdərə Xocalı və Xocavənd Şəhəri Günü" elan olunub.